**"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1**
**"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1**
**УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1**

**UOT 94(4/9)**

**İBRAHİM KAZIMBƏYLİ**
Azərbaycan Dillər Universiteti
ibrahimkazimbeyli@gmail.com

# XIX ƏSR OSMANLI TÜRKİYƏSİ ƏRAZİSİNDƏ ERMƏNİ İĞTİŞAŞLARI

*XIX əsrin əvvəllərindən etibarən Osmanlı dövlətinin qismən də olsa zəifləməsindən istifadə edən xristian güclər bu coğrafiyalarda öz mövqelərini möhkəmləndirməyə çalışırdılar. Qərbin böyük dövlətləri ermənilərı Osmanlı dövlətinin əleyhinə qaldırmaqla özlərinin "şərq siyasətini" öz xeyirlərinə həll etməyə çalışırdılar.*

*Anadoluda Türk hakimiyyətinin başlamasıyla ermənilər öz dillərini sərbəst şəkildə istifadə edirdilər. Bir faktı qeyd edək ki, hələ 1517-ci ildə Osmanlı dövləti Erməni mətbəəsinin açılmasına izn vermişdir.*

*Bütün tarixi mənbələr, hətta erməni mənbələrində də göstərilir ki, 1877-1878-ci il Osmanli-Rusiya müharibəsinə qədər olan dövrlərdə dövlət idarə etməsində ermənilər bir toplum olaraq bir sıra imtiyazlara və müstəqilliyə sahib olmuşdular. Bu müharibədən sonra Osmanlı dövlətinin məğlubiyyətindən istifadə edən bəzi Qərb dövlətlərinin basqıları artmış və "erməni kartından" istifadə etməyə başlamışlar.*

*Qərb dövlətləri Rusiyanın bu ərazilərdə strateji mövqelərə sahib olmasını heç cürə qəbul edə bilmirdi. Türkiyənin bölünməsi-parçalanması məsələsində həm Rusiya həm də Qərb maraqlı idi. Ermənilər isə bu vəziyyətdən istifadə edərək Şərqi Anadolu ərazisində özlərinə muxtariyyət və dövlət qurulmasını istəyirdilər. Bu sərsəm ideya baş tutmadıqda isə, iğtişaş, terror və talanlara rəvac verirdilər. Bu məsələlər məqalədə geniş şəkildə təhlil süzgəcindən keçirilir.*

**Açar sözlər**: *dövlət, iğtişaş, əsr, siyasət, terror, üsyan.*

Rusiya Balkanlarda və Qafqazda mövqelərini möhkəmləndirmək məqsədilə bir neçə dəfə Osmanlı dövləti ilə müharibə aparmışdı. Düzdür, Kiçik Qaynarca sülh müqaviləsi ilə rus orduları Osmanlı torpaqlarından çıxarıldı. Lakin bunun nəticəsi Osmanlı dövləti üçün çox ağır oldu. Krım Osmanlı hakimiyyətindən çıxdı, Rusiya Boğdan və Əflak üzərində, hətta bütün Osmanlıdakı provaslav kilsəsi üzərində söz sahibi oldu. Sonradan Rusiya bu maddələrə istinad edərək Osmanlı dövlətinin daxili işlərinə müdaxilə etmə haqqını özündə görmüşdür [6. səh. 66]. Müqavilənin 14-cü maddəsinə əsasən İstanbulda səfirlik binası tikilməli, burada bir kilsə də olmalı idi. Bundan əlavə Perada (Bəyoğlunda) bir rus provaslav kilsəsinin tikilməsinə icazə verilməli və bu kilsəni Rusiya himayə etməli idi. 1775-ci ildə ruslar Kiçik Qaynarca sülh müqaviləsinin 14-cü maddəsindəki "Rus kilsəsi"ni müqavilənin fransızca tərcüməsində

**Məqalə tarixçəsi:**
Göndərilib: 26.02.2019, qəbul edilib: 18.03.2019

bilərəkdən "Rum kilsəsi"elədi. Bu dəyişiklik buradan digər tərcümələrdə də "Rum kilsəsi" kimi işlədildi və rusların "Osmanlıdakı provaslavlarının rəsmi qoruyucusu" iddiası daima dəstək tapdı **[7.səh.125]**.

Kiçik Qaynarca sülhü ilə nəticələnən müharibə Osmanlı dövlətində daxili ziddiyyətlərin üzə çıxmasına şərait yaratdı. Rusiya müharibə dövründə bütün vasitələrlə Osmanlı dövlətindəki qeyri-müsəlman əhalini, xüsusilə də erməniləri üsyana sövq etmiş, bu məqsədinə Morada nail olmuşdu. Morada əsrlərdən bəri yaşamaqda olan türklərin kütləvi qətliamı, var-dövlətlərinin qarət edilməsi ermənilərin və digər xristian əhalinin gələcəkdəki vəhşiliklərindən xəbər verirdi.

Rusiya 1816-cı ildə Moskvada Erməni Şərq Dilləri İnstitutunu yaradaraq erməni məsələsi ilə daha sistemli bir şəkildə məşğul olmağa başladı. Rusiya İran ilə imzaladığı Türkmənçay sülh müqaviləsindən sonra Rəvan və Naxçıvan ərazisində bir "erməni vilayəti" yaratdıqdan sonra İran ərazisindən erməniləri bu ərazilərə yerləşdirdi. Bundan sonra Rusiya Türkiyə erməniləri ilə də əlaqələrini genişləndirdi. Rusiya yaxınlaşmaqda olan müharibəyə "hazırlıq" üçün ermənilər içərisində təbliğatı genişləndirir və bu məqsədlə vəsait xərcləyirdi. Afriyanov adlı bir rus zabiti Şərqi və Cənub-Şərqi Anadoluda yaşayan ermənilərə qızıl paylayaraq siyasi vədlər verirdi **[4.səh.310]**. Bunun nəticəsi idi ki, 1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsində ermənilər rus ordusunun tərkibində türklərə qarşı vuruşaraq Ərzurumun alınmasında ruslara böyük köməklik göstərmiş və dinc əhaliyə böyük əziyyət vermişdilər **[3. səh. 368]**. Qarsı işğal edən rusları ermənilər böyük sevinclə qarşılamışlar. Osmanlı-Rusiya müharibəsinin sonunda Qafqaza hakim olan ruslar Anadoludakı ermənilərin "erməni vilayəti"nə köçürülməsini tələb edir.

1853-cü il yanvarın 9-da Rusiya çarı I Nikolay Sankt-Peterburqdakı ingilis səfiri Hamilton Seymoura "Qollarımız arasında xəstə bir adam var. Birdən ölərsə bir Avropa müharibəsi qaçılmazdır. Bərabər bir tədbir alsaq daha ağıllı hərəkət olmazmı?" deyə açıq şəkildə Osmanlı dövlətini bölüşdürməyi təklif edir **[7. səh.147]**. Plana görə Memleketeyn (Rumıniya), Serbiya və Bolqarıstan Rusiyanın himayəsinə keçməli, bunun müqabilində isə Misir və Girit İngiltərəyə hədiyyə edilirdi. Ərazi cəhətdən kiçilən Osmanlı dövləti isə Rusiyanın himayəsi altına keçməli idi. Lakin bu dövrdə İngiltərə Rusiyanı Avropa və Aralıq dənizindən kənarda saxlamağa çalışdığına görə səfir bu təklifi soyuq qarşılayır və bu barədə Londona məlumat verir. İngiltərə öz mənafeləri baxımından hələ belə bir hərəkətin tez olduğunu düşünür.

Bu zamankı danışıqlarda Osmanlı imperiyasında yaşayan xristianların himayə edilməsi məsələsi ortaya atılmışdı. Ona görə də çar Qüdsdəki müqəddəs yerlərin qorunması məsələsini ortaya atır. Müqəddəs yerlər problemini qızışdıran Fransa idi. Hələ XVI əsrdən müqəddəs yerlərin baxımı Fransanın da təsiri ilə katoliklərin əlində idi. 1535-ci ildə Qanuni Sultan Süleyman II Bəyazidin siyasətini davam etdirərək Fransaya geniş imtiyazlar vermişdi. Fərmanla eyni zamanda fransız əsilli katoliklərə ibadət yeri açmaqda sərbəstlik, həmçinin Qüds və Beytüllahim (İsanın doğulduğu qəbul edilən yer-A.M.) kilsələrinin qoruma haqqı fransızlara verilmişdi. Rusiya ilə müharibə aparan Osmanlı

dövləti Fransadan siyasi dəstək istədikdə Fransa yeni imtiyazlar istəmiş və 1740-cı ildə müqavilə imzalanmışdı. 1740-cı il kapitulyasiyaları ilə Fransanın Osmanlı dövləti üzərindəki nüfuzu artdığına görə katolik kilsəsinin də haqları artmış oldu. Lakin Fransada baş verən inqilabdan sonra dünyəvi dövlət qurulur və Fransa katolik kilsəsini qorumaqdan əl çəkir. Bundan istifadə edən provaslav kilsəsi daha fəal olmağa başlayır. Sonra Fransada Katolik Partiyasının səsləri və dəstəyi ilə hakimiyyətə gələn Luis Napoleon müqəddəs yerlər üzərində katolik kilsəsinin haqlarını müdafiə etməyə başlayır. Həmin vaxt I Nikolay da provaslav kilsəsinin haqlarını müdafiə etməyə başlayır və ortaya çıxan mübahisə beynəlxalq şəkil alır. Ona görə də Fransa dərhal Qüdsdəki katolik haqlarının qorunmasını tələb edir. Pravoslavlar müqəddəs yerlərə katolikləri buraxmadıqlarına görə Fransa da müqəddəs yerləri qorumalı idi. I Nikolay Rusiyanı Osmanlı pravoslavlarının hamisi hesab edirdi. Osmanlı dövlətindəki provaslavları" qorumağı" və müqəddəs yerləri tutmağı qarşısına məqsəd qoyan çar I Nikolay "xaçın" "ay" üzərində qələbə çalacağına həm öz xalqını, həm də Osmanlı dövlətindəki xristianları inandırmışdı. Ona görə də 28 fevral 1853-cü ildə Rusiya çarı Hərbi-Dəniz naziri şahzadə Menşikovu Osmanlıya göndərir **[1.səh.116]**. Böyük bir nümayişlə İstanbula gələn Menşikov, bu vaxt fransız və ingilis səfirlərinin ölkələrinə getməsindən istifadə edib sədrəzəm Məmmədəliyə və Xarici İşlər naziri Fuad əfəndiyə nota verdi. Lakin İngiltərənin səfiri Stratford de Redclif İstanbula qayıdan kimi məsələyə qarışdı. Menşikov müqəddəs yerlər barədə fransız səfiri ilə razılaşmaqla bərabər, Osmanlı provaslav əhalisinin rus himayəsinə keçməsi barədə tələbini də davam etdirdi. Lakin bu tələb yeni Xarici İşlər naziri M. Rəşid tərəfindən rədd edildi. Menşikov hökumətə göndərdiyi 19 aprel 1853-cü il tarixli notada müqəddəs yerlər probleminin dərhal həll edilməsini və rum kilsəsi haqqında Osmanlı dövləti tərəfindən verilmiş imtiyazların daha da artırılmasına dair sənəd və ya təminat verilməsini tələb edir. Lakin bu tələb Fransa və İngiltərənin dəstəyi ilə hökumət tərəfindən rədd edilir. Menşikov İstanbuldan ayrılarkən Rusiyanın tələbi qəbul edilənə qədər Memleketeyni (Rumıniyanı) işğal edəcəklərini bildirdi.

Avstriya dövləti Rusiya ilə Osmanlı hökuməti arasındakı mübahisənin böyüməsinin qarşısını almağa, iki dövlət arasında ortaq nöqtə tapmağa çalışırdı. Ona görə də Vyanada olan böyük dövlətlərin səfirlərini 1853-cü il iyunun 1-də bir konfransa dəvət edir. Vyana konfransı iyunun 31-də Menşikovun təkliflərini başqa bir şəkildə nota ilə Osmanlı nümayəndəsinə təqdim edilir. Lakin Rəşid paşa Vyana notasını da qəbul etmir.

Rusiya 1853-cü ildə Əflak və Boğdanı işğal edərək Osmanlıya qarşı müharibəyə başladı. Osmanlı dövləti də oktyabrın 4-də Rusiyaya müharibə elan etdi. İngiltərə və Fransa Osmanlıların yanında müharibəyə qoşuldular. Razılaşmaya görə Osmanlı dövlətinin torpaq bütünlüyü təmin ediləcək, lakin Osmanlı qeyri-müsəlman təbəələrinə yeni haqlar verəcək. 1856-cı ildə verilən İslahat fərmanının da səbəbi bu idi. Krım müharibəsi Rusiyanın tam məğlubiyyəti ilə nəticələndi. İngilis və fransız səfirlərinin də iştirakı ilə islahat fərmanı hazırlandı. Fərmanın son şəkli ruslara da göstərildi və onların dəstəyi alındı. 1856-cı il fevralın 18-də İslahat fərmanı hökumətdə təntənəli şəkildə oxunduqdan sonra

Parisdə sülh bağlamaq məqsədilə toplanmış dövlətlərə təqdim edildi. İslahat fərmanına görə müsəlman olmayanlar hərbi və digər bütün məktəblərdə oxuma haqqı əldə edir, müsəlmanlarla müsəlman olmayanlar arasında cərimə və ticarət məhkəmələri "muhtelit divanlarda", yəni dini olmayan məhkəmələrdə aparılmalı, müsəlman olmayanlara da hərbi xidmət keçmək, və ya "bədəl "ödəməklə xidmətdən azad olmaq haqqları verilməlidir və s. **[10.səh.132]**.

Rusiya-Osmanlı müharibəsindən sonrakı dövrdə, 1870-ci ildə rus konsulları Vanda "İnqilabi erməni təhsili" nə başladı. Antepdə missionerlər 4 erməni qəzet və jurnalı çıxarırdılar. Amerika missionerləri İstanbulda bir neçə kollec yaratmışdılar ki, bunlardan biri də Merzifon Amerika kolleci idi ki, bu kollec yunan və erməni üsyançılarının məşhur qərargahı və silah anbarı idi. 1857-ci il fərmanı ilə verilən hüquqlar missioner fəaliyyətlərinin artmasında böyük rol oynadı.

Bəzi Avropa dövlətləri Osmanlı dövlətinin daxili işlərinə asanlıqla qarışmaq üçün xristian təbəələri qızışdırmağa başlamışdılar. Xristian təbəələri içərisində isə ermənilərə daha üstünlük verilmişdi. Balkan ölkələrinə müstəqillik verən San-Stefano və Berlin müqavilələrinə ermənilərlə bağlı da maddənin əlavə edilməsi ilə ilk dəfə dövlətlərarası müqavilələrdə erməni məsələsi yer aldı, eyni zamanda Şərq məsələsi içində bir erməni məsələsi ortaya atıldı. Bu məsələni öz mənfəətləri üçün istifadə etmək istəyən dövlərlərin başında Rusiya və İngiltərə gəlirdi.

24 aprel 1877-ci ildə Rusiya Osmanlı dövlətinə müharibə elan edir. Əslində bu müharibə təkcə Rusiya ilə deyildi. Rusiyaya Qafqaz cəbhəsində ermənilər kömək edirdilər. 1877-ci il aprelin 24-də başlayan Osmanlı-Rusiya müharibəsində Rusiya Şərqi Anadoluda yaşayan ermənilərdən istifadə edir. Ruslar bu müharibədə erməniləri qızışdıraraq onlardan bir alət kimi istifadə edirdi. Qafqaz cəbhəsində Ərzurumun Aziziyə istehkamlarına ilk soxulanlar da türkcə danışaraq gələn ermənilər olmuşdur. Bu müharibə əslində türklərin soyqırımına çevrilmişdir. Ermənilər əhalini qəddarcasına öldürürdülər. 1877-ci il iyulun 9-da Əhməd Fəhmi paşanın Daxili İşlər nazirliyinə göndərdiyi teleqrafda deyilirdi ki, "İndiyə qədər heç bir müharibədə görülməmiş bir vəhşilik yaşanır, kəndlilər bombardman edilir, intihar edə bilməyən qadınlar qaçırılır, təslim olanlar balta ilə parçalanır" **[7. səh.163]**. Süleyman paşanın Müdafiə Nazirliyinə göndərdiyi məlumatda da "Təcavüz edilən qadınların diri-diri yandırıldığı" bildirilirdi.

Ermənilər ruslara etdikləri köməyin müqabilində isə müharibənin sonunda xidmətlərinin qarşılığını dərhal almaq məqsədilə patriarx Nerses və İzmirliyanın başçılığı ilə toplanan erməni məclisi çar II Aleksandra bir memorandum göndərirlər. Memorandumda ermənilərin Rusiya çarından istədikləri aşağıdakılar idi:

1. Firata qədər olan bölgənin türklərə geri verilməməsi və bu ərazilərin Ararat (Ağrı) ilə birləşdirilərək Rusiyaya bağl bir Ermənistanın qurulması;
2. Ərazi ilhaqı olmayacağı halında Bolqarıstana və Bolqar millətinə veriləcək imtiyazların erməni millətinə də verilməsi;

3. İşğal edilən torpaqlar boşaldılacaqsa, hökumətdən islahat üçün maddi təminat alınması və islahatın həyata keçirilməsinə qədər rus əsgərlərinin işğal etdikləri torpaqları boşaltmamaları **[2.səh.199**].

Ruslar Yaşılköydə olarkən erməni əhalisi adından Qrandik Nikolay ilə görüşən Aslanyan və Nuryan çarın əmrində olduqlarını bildirirlər. Erməni patriarxı Nerses sülh müqaviləsinin bağlanacağı San-Stefanoda Rusiya Ali komandanı Qrandik Nikolayı ziyarət edərək ermənilərin istəklərini bldirir. Nerses eyni zamanda, İngiltərə Xarici İşlər naziri Salisbura məktub yazaraq ondan "erməni idarəçiliyi" istəyir. Məhz rusların bilavasitə təsiri ilə San-Stefano sülh müqaviləsinə ermənilərlə bağlı bir maddə salınır. Beləliklə bu istiqamətdə rusların Osmanlıya müdaxilə etmələri üçün qapı açılır. 19 fevral 1878-ci ildə(" Osmanlı devleti tarihi"ndə 3 mart 1878-ci il göstərilir) imzalanan sülh müqaviləsinin 16-cı maddəsinə görə ermənilərin yaşadıqları Şərqi Anadolu vilayətlərində islahat keçirilməsi və buradakı xristianların qorunması nəzərdə tutulurdu. Halbuki bu vilayətlərin heç birində erməni əhalisi yüzdə 20-ni təşkil etmirdi. Fransa Xarici İşlər Nazirliyinin 1897-ci ildə nəşr edilmiş sənədlərində yazılmışdır: "Müxtəlif tayfa bölgülərinin dərindən öyrənilməsi Türk imperiyasının heç bir vilayətində ermənilərin əhalinin əksəriyyətini təşkil etmədiyini təsdiqləməyə imkan verir. Bunu yerlərdə baş qərargahın Qafqaz zabitləri-general Zelyonının və polkovnik Kartsevin əldə etdikləri statistik məlumatlar da əyani surətdə təsdiq edir" **[11.səh.77]**.

Rusiyanın San-Stefano müqaviləsi ilə Şərqi Anadolu və Balkanlarda hakim olması ənənəvi ingilis siyasətinə zidd idi. Çünki, rus təsirinin yayılması İngiltərənin Hindistanla olan əlaqəsini təhdid etməklə bərabər, onun gücünü də zəiflədirdi. Bu baxımdan İngiltərə dərhal məsələyə qarışdı.

İngiltərə Rusiyanın isti dənizlərə daxil olmasına əngəl olmaq üçün Osmanlı dövlətini dəstəkləməklə yanaşı, Osmanlı torpaqlarında protestant missionerlərinin fəaliyyətini istiqamətləndirirdi. Bu missionerlik fəaliyyətləri erməni millətçiliyinin oyanmasında böyük rol oynamışdır. Missionerlər bəzi erməni gənclərini təhsil üçün ABŞ-a göndərirdilər ki, orada qalanlar erməni terror təşkilatlarının öncülləri oldular. Rusiyanın Şərqi Anadoluda Qars kimi çox müham strateji məntəqəni ələ keçirməsi İngiltərənin qərb ticarəti baxımından həyati əhəmiyyət daşıyan yolların güvənliyiini ciddi təhlükə altında qoyurdu. Bundan əlavə, İngiltərə Rusiyanın Balkanlarda gerçəkləşdirdiyi bölünməni Anadoluda da etməsindən qorxurdu.

Ona görə də İngiltərə Balkanlarda və Ağ dənizdəki müvazinətin pozulduğunu irəli sürərək San-Stefano sülh müqaviləsi yerinə digər Avropa dövlətlərinin də qatılması ilə yeni bir müqavilənin bağlanması istəyini Rusiyaya qəbul etdirdi. Yeni müqavilə Berlində imzalandı. Rusların ermənilər vasitəsilə Orta Şərqə, yəni Hindistan yoluna sıçraması ehtimalı qarşısında təlaşlanan İngiltərə də bu məsələdə Rusiyadan geri qalmaq istəmir. Həqiqətən də İngiltərənin də marağına uyğun olaraq müqavilədə ermənilərin lehinə maddə əksini tapdı. 13 iyul 1878-ci ildə imzalanan və 15 iyul 1878-ci ildə II Əbdülhəmid tərəfindən təsdiq olunan Berlin müqaviləsinə əsasən ("Osmanlı devleti tarihi"ndə 20 iyun-20 iyul göstərilir) Osmanlı dövləti Şərqi Anadoluda-Ərzurum, Van, Bitlis, Diyarbəkir, Sivas, Harput əyalətlərində ermənilərin xey-

rinə islahat həyata keçirməli idi. Onu da qeyd etmək lazımdır ki, o zamankı bu 6 vilayət bu günkü Ərzurum, Ərzincan, Van, Ağrı, Hakkari, Muş, Bitlis, Siirt, Diyarbəkir, Elazığ, Mardin, Bingöl, Malatya, Sivas, Amasya, Tokat və qismən də Giresun vilayətlərini əhatə edirdi **[6.səh. 110]**. Burada əsas məqsəd türklərə və kürdlərə qarşı soyqırım törədərək onları buradan qaçırtmaq və bir Ermənistan dövləti qurmaq idi. Ermənilər böyük dövlətlərə arxalanaraq və Avropa cəmiyyətinin dəstəyini qazanaraq məqsədlərinə nail olmağa çalışırdılar. Bunun üçün terror törətməklə günahı türklərin üzərinə atmaq, hətta öz xalqını qətl etmək bahasına da olsa qanlı cinayətlər törədərək böyük dövlətlərin diqqətini bu məsələyə cəlb etməyə çalışırdılar. Ermənilər bu yolla türkləri qızışdıraraq ermənilərə qarşı saldırmağa, sonra isə Avropaya "xristian qətliamı" olaraq təqdim edərək onların müdaxilə etmələrinə şərait yaratmağa çalşırdılar. Plana görə, Balkanlardakı pis idarə mexanizmi orada üsyanların genişlənməsinə səbəb olduğu kimi, ermənilərin yaşadıqları bölgələrdəki idarəçilik xataları da Rusiya və Avropa dövlətlərinin dəstəklədikləri erməni quldur dəstələrinin işlərini asanlaşdıracaqdı.

İngilis səfiri Layard "Sizə hər an kömək etməyə hazır ola bilməmiz üçün Ağdənidə bir baza lazımdır" deyərək Kiprin İngiltərənin idarəsinə verilməsini istəyir və bu məsələ 1878-ci il iyunun 4-də ("Osmanlı devleti tarihi"ndə 4 aprel göstərilir) imzalanan 4 maddəlik müqavilə ilə həll olunur **[7.səh.165]**. Müqaviləyə görə İngiltərə də Qərbi Anadoluda rus təhlükəsinin qarşısını almaq üçün bu təhlükə qalxana qədər Kipr adasında yerləşəcəkdi. Bu şəkildə İngiltərə Hindistana gedən ən qısa yolun təhlükəsizliyini təmin etdi.

Berlin müqaviləsindən dərhal sonra Şərqi Anadoluda xeyli hərbi konsulluqlar yarandı. Belə ki, tək Ərzurumda 6 konsulluq-İran, Rusiya, Fransa, İngiltərə, İtaliya, Amerika konsulluqları var idi. Muşda erməni yepiskopu Van konsulu kapitan Qlayxtonu təntənəli şəkildə qarşılayaraq "Möhtərəm ser, bizi qurtarın" deyə fəryad çəkərək diqqəti erməni məsələsinə çəkməyə çalışırdı.

Göründüyü kimi, erməni islahatı məsələsində İngiltərə erməniləri deyil, öz mənfəətini qorumaq üçün hərəkətə keçmiş və Kipr müqaviləsini imzalamışdır. Həqiqətən də, Şərqi Anadolu bölgəsi və Trabzon- Ərzurum-Qərbi Bəyazid üzərindən Qara dənizi İrana bağlayan ticarət yolu İngiltərə üçün çox əhəmiyyətli idi. 1840-cı ildən etibarən Mançesterdə yerləşən erməni tacirlər Britaniya adalarında emal edilən pambıq parçaları bu yol vasitəsilə İran və Türküstana aparırdılar. İngilislər tədavülü genişləndirmək üçün Şərqi Anadoluda erməni tacirlərinə sərmayə və kredit verdilər və bu ticarətdən də xeyli gəlir götürdülər. Ona görə də, San-Stefano müqaviləsinin bu yolu rus nəzarəti altına soxan 19 və 20-ci maddələrinə İngiltərə qəti etiraz edərək bu yerlərin təkrar Osmanlı dövlətinə keçməsini təmin etmişdi **[5. səh 22]**.

Patriarx Hrimyan Berlin konqresinə qatıldığında yurddaşları "Burada hansı dildə danışacaqsan, Hayrik? Ermənicədən başqa hər hansı bir dil bilmirisən" deyə soruşduqda Hrimyan "Gözyaşı dili ilə danışacağam" deyə cavab vermişdi **[9. səh.148]**. Göründüyü kimi ermənilər öz məqsədlərinə çatmaqdan ötrü bütün vasitələrdən istifadə edirdilər ki, böyük dövlətlərin diqqətini erməni məsələsinə çəksinlər. Ona görə də, San-Stefano müqaviləsində ermənilərlə

bağlı olan 16-cı maddədə müəyyən dəyişiklik edilərək Berlin müqaviləsində 61-ci maddədə əksini tapdı. Bu maddəyə görə hökumət Şərqi Anadoluda islahat aparmalı, asayişi qorumalı və bu barədə həyata keçirdiyi tədbirlər barədə maraqlı dövlətlərə məlumat verməli idi.

Berlin müqaviləsinin imzalanmasından dərhal sonra, yəni 1878-ci il avqustun 19-da İngiltərə 61-ci maddənin yerinə yetirilməsi üçün Osmanlı hökumətinə bir nota verdi. Osmanlı hökuməti maliyyə sıxıntılarını irəli sürərək Şərqi Anadoluda islahatlara dərhal başlaya bilməyəcəyini bildirdi. Bu zaman İngiltərədə 1880-ci il seçimlərindən sonra Qladstonun rəhbərliyi altındakı Liberal Partiyanın hakimiyyətə gəlməsi ilə bu dövlətin Şərqi Anadoluda islahatlarla bağlı siyasətində bir dəyişiklik meydana gəldi. İngiltərə verdiyi notaya qarşı Osmanlı dövlətinin dirəndiyini görüb islahat barədə digər Avropa dövlətlərinin də köməyini təmin etmək yolunu tutdu. İngiltərə beş Avropa dövləti ilə birlikdə islahatın keçirilməsi barədə 1880-ci il iyunun 11-də növbəti nota göndərdi. Beləliklə, Şərqi Anadoluda islahat məsələsi millətlərarası bir xarakter aldı.

1881-ci ildə çar II Aleksandrın sui-qəsd nəticəsində öldürülməsi ilə Rusiya erməni islahatının keçirilməsi barədə əvvəlki kimi aktiv siyasət yeridə bilmədi. Belə vəziyyətdə islahat məsələsində İngiltərə tək qaldı. 1882-ci ildə Misiri işğal etdikdən sonra İngiltərənin boğazlar və Osmanlı dövləti ilə bağlı siyasətində dəyişiklik edildi. Çünki, Cəbəllüttariq, Malta, Kipr və Misirə hakim olmaqla Hindistana yolun tam nəzarətinə keçməsi ilə boğazların İngiltərə üçün əhəmiyyəti azaldı. Ona görə də Osmanlı dövlətinin ərazi bütövlüyü ilə bağlı siyasətindən əl çəkən İngiltərə ermənilərlə bağlı məsələlərdə daha aktiv siyasət yeritməyə başladı və eyni zamanda, ölkəsində Anqlo-Armenian Komittenin (İngilis-Erməni Komitəsinin) fəaliyyətinə icazə verdi.

Osmanlı dövlətinin heç bir bölgəsində sayca üstünlüyə malik olmayan ermənilər sosial, dini, siyasi, idarəçilik və mədəni azadlıqlara sahib idilər. Hökumət tərəfindən heç bir təzyiq görməyən ermənilərin baş qaldırmalarına əsasları yox idi. V.L.Veliçko məlum əsərində yazırdı ki, "Berlin müqaviləsində sonra ermənilər muxtariyyət haqqında artıq müəyyən siyasi xülyalara qapılmağa başlamışdılar. Amma qeyri-tüfeyli az-çox möhkəm muxtariyyət üçün müəyyən dərəcədə bütöv ərazi tələb olunur. Fransa Xarici İşlər Nazirliyinin 1897-ci ildə nəşr edilmiş sənədlərindən göründüyü kimi, Türkiyədə belə muxtariyyət üçün əsas yoxdur və heç vaxt da olmamışdır" **[11.səh.77]**. Bütün bu həqiqətlərə baxmayaraq, İngiltərə və Rusiya öz mənfəətləri üçün erməniləri qızışdıraraq türklərə qarşı qaldırması ilə ölkədə şiddətli hadisələr baş verdi. İlk ciddi hadisələr 1890-cı ildə baş verdi.Həmin ilin iyun ayında Ərzurumda Anavətən Müdafiləri Cəmiyyəti üzvlərinin və iyul ayında İstanbulda Qumqapıda Hnçak partiyası üzvlərinin erməniləri qızışdırmaları ilə baş verən hadisələrdə yüzillərlə barış içində yaşayan iki toplum qarşı-qarşıya gəldi.İki tərəfdən 12 nəfərin öldüyü hadisələr Avropa mətbuatında ermənilərə qarşı edilmiş bir qətliam olaraq yer aldı. Bu cür yalanlar Avropada ermənilərin lehinə rəy formalaşdırmaq üçün edilirdi.

Rusiya ilə İngiltərə arasındakı rəqabət erməni məsələsini dövlətlərarası bir səviyyəyə qaldırdı. Bundan cəsarətlənən ermənilər hərəkətə keçərək

Osmanlı daxilində və xaricində bəzi partiya və dərnəklər qurmağa başladılar. Başlanğıcda xeyriyyəçilik məqsədilə qurulan bu dərnəklər qısa zamanda "Ermənistan" qurma planı üçün bir terror yuvalarına çevrildi. Bunlardan biri 1878-ci ildə Vanda qurulan Qara Xaç Cəmiyyəti idi ki, bu Cəmiyyət Amerikadakı Ku Klux Klanın bənzəri bir qurum idi. Bundan iki il sonra, 1880-ci ildə Rusiyada qurulan erməni dərnəkləri Anadolu ermənilərinə silah göndərməyə başladılar. Bundan əlavə, 1881-ci ildə Ərzurumda Anavətən Müdafiləri (Pashtpan Haireniats) dərnəyi quruldu. Dərnəyin məqsədi guya erməniləri hücumlardan qorumaq idi, lakin əslində erməniləri silah və sursat ilə təmin etmək məqsədi daşıyırdı. 1885-ci ilin sonlarında Vanda İnqilabi Armenakan Partiyası quruldu. Bu partiyanın quruluş məqsədi inqilab yolu ilə özlərinə idarəetmə haqqı qazanmaq idi.

1887-ci ildə Cenevrədə marksist ermənilər tərəfindən qurulan Hnçak partiyası 1890-cı ildə İnqilabi Hnçaq Partiyası adını aldı. Partiyanın proqramındakı ilk hədəf Anadoludakı ermənilərin siyasi və milli müstəqilliklərini təmin etmək idi. Anadoluda inqilab yolu ilə reallaşdırılacaq hədəflərə çatmaq üçün təbliğat, qızışdırıcılıq, terror, təşkilatlanma üsullarından istifadə nəzərdə tutulurdu. Qızışdırıcılıq vasitələri hökumətə qarşı çıxışlar, vergi verməmək, islahat tələb etmək və dövlətə qarşı düşmənçilik şəklində idi. Terrorun hədəfi hökumətdə xidmət edən nüfuzlu şəxslər idi. Plana görə inqilab Osmanlı dövləti müharibə içində olarkən reallaşdırılacaq və Anadoludakı ermənilərin müstəqilliyi əldə olunduqdan sonra Rusiya və İran erməniləri ilə federativ bir "Ermənistan" qurulacaqdı. Göründüyü kimi, ermənilərin iştahası daha böyük idi. Onlar təkcə Şərqi Anadolu ilə kifayətlənmir, İran ərazisini də əhatə edəcək bir dövlət qurmaq istəyirdilər. Bunu Avropada da yaxşı başa düşürdülər. Fransanın Osmanlı sarayındakı səfiri Kambonun nazir Qanotaya yazdığı məktubunda deyilirdi ki, " müstəqil Ermənistan haqqında fikirləşməyə ehtiyac belə yoxdur. Əgər hər hansı bir ağlasığmayan şərtə görə Avropa Ermənistan yaratmağı təklif eləsəydi, onda demək olar ki, bu yeni dövlətin hüdudlarını göstərmək mümkün olmazdı" **[11. səh.55]**.

Ölkə xaricindəki quruluşlar Rusiya, İran, Avropa və Amerika şəhərlərində şöbələr açmaqla bərabər, Osmanlı torpaqlarında da gizli olaraq təşkilatlanırdılar. Armenakan partiyasının İstanbul, Tranzon, Muş və Bitlisdə, Hnçaq partiyasının İstanbul, Bafra, Merzifon, Amasya, Tokat, Yozqat, Arapkir və Trabzonda şöbələri açıldı. 1890-cı ilin yazında Tbilisidə Erməni İnqilab Federasiyonu (Daşnaksütyun) quruldu. Daşnaksütyun partiyasının proqramında məqsədə üsyan etmək , terrorçu dəstələr qurmaq, xalqı silahlandırmaq, hökumət nümayəndələrinə və qurumlarına qarşı qəsdlər təşkil etmək yolu ilə çatmaq nəzərdə tutulurdu. Bu inqilabi partiyaya 1891-ci ildə Hnçaq partiyası da qoşulsa da, bir il sonra anlaşa bilmədiklərinə görə ayrıldılar. Daşnaksütyun İstanbul və Şərqi Anadolu şəhərlərində təşkilatlandı.Bu partiyanın Rusiyada 2311, Türkiyədə 693, İranda 90 və s. yerli təşkilatları fəaliyyət göstərirdi **[8.səh.59]**. Bu dərnəklərin Türkiyədə təşkilatlanmalarının ardından dərhal terror hərəkətləri meydana gəldi. 1908-ci ildə tərtib olunan polis departamentinin materiallarında daşnakların İran və Türkiyədəki tərəfdarlarının vasitəsilə

İran, Türkiyə və Rusiyada dövlət başçılarını öldürmək, bununla da aranın qarışmasından istifadə edərək böyük ordu ilə Qars və Ərzuruma hücum etməklə Qərbin köməyi ilə "Böyük Ermənistan" yaratmaq istədikləri göstərilirdi.

1890-cı ildən başlayaraq erməni üsyanları və hücumları başlandı. 1892-ci ildə Muş, Merzifon və Yozqatda, 1894-cü ildə Sasunda, 1895-ci ildə 25 bölgədə erməni dəstələrinin türklərə qarşı qırğınları baş verdi. Qeyd etmək lazımdır ki, 1894-cü ilin yazında İngiltərənin Vandakı konsulunun ermənilərin yaşadıqları bölgələri gəzməsindən sonra Sasunda üsyan başlamışdı. Sasun üsyanı daha qanlı bir şəkil almışdı. 1896-cı ilin iyun ayında amerikalı missionerlərin və rus konsulunun da iştirak etdiyi bir yığıncaqdan sonra Vanda üsyan başladı. Ermənilər Osmanlı Bankını qarət etdilər. Yenidən türk-erməni toqquşmaları baş verdi.  120 nəfər türk üsyan zamanı öldürüldü.

Bu hadisələrlə Avropa mətbuatının diqqət və marağını özlərinə cəlb edən ermənilərin Avropa dövlətlərindən istədikləri daha yüksək idi. Ermənilər bu yolla Avropa dövlətlərini Osmanlı dövlətini islahatlar keçirməyə təzyiq göstərmələrini istəyirdilər. Avropa dövlətlərinin nümayəndələri Osmanlı dövlətinə təzyiq edərək Qumqapı və Ərzurum hadisələrinin günahkarlarının cəzalandırılmasının qarşısını almağa çalışırdılar. Çünki, bu məsələdə əsas günahkarlar təbii ki, ermənilər idilər. Bu isə ermənilərin terror məsələsində cəsarətlərini daha da artırdı. Digər tərəfdən, 1891-ci ildə II Əbdülhəmid ermənilər üçün əfv fərmanı verdi. Buna baxmayaraq, ermənilər terrorçu fəaliyyətlərini dayandırmadılar. 1892-ci ilin sonlarında Van valisinə qarşı sui-qəsdə təşəbbüs edən ermənilər 1893-cü ildə Amasya, Merzifon, Ankara, Çorum, Tokat, Yozqat və Diyarbəkirdə II Əbdülhəmidin əleyhinə çıxışlar edərək üsyan qaldırdılar. Bu hadisələr xüsusilə, İngiltərədəki Anqlo-Armenian Komitəsi tərəfindən müdafiə edilirdi. Avropa dövlətlərini erməni məsələsinə cəlb etmək üçün Komitəçilər 1894-cü ildə patriarx Aşıkyana qarşı sui-qəsd törətdilər, lakin məqsədlərinə çata bilmədilər. Sonra ermənilər Sasunda üsyan etdilər. Xüsusilə Sasun itkisi Avropa mətbuatını və cəmiyyətini türklər əleyhinə hərəkətə gətirdi. Lakin təşkil edilən millətlərarası Təhqiqat Komissiyası 1895-ci il iyulun 20-də verdiyi məlumatda ermənilərin heç də günahsız olmadıqlarını ortaya çıxartdı. Lakin bununla bərabər, erməni hadisələri beynəlxalq arenaya çıxarıldı. Bunun nəticəsi idi ki,Təhqiqat Komissiyasının araşdırmaları başa çatmadığı halda İngiltərə, Fransa və Rusiya islahat üçün təzyiqləri artırdılar. 1895-ci il mayın 11-də Avropa dövlətləri hökumətə verdikləri notada islahatların Vilayati-Sittede -Ərzurum, Bitlis, Van, Sivas, Mamuretül-Aziz və Diyarbəkirdə keçirilməsi tələb olunurdu (Vilayati-Sitte 1878-ci il Berlin müqaviləsinə görə yaradılmışdı, 6 vilayətin birlikdə adı idi). Bu 6 vilayətdə hökumətin idarəçilik, ədliyyə, hərbi və maliyyə hüquqlarının məhdudlaşdırılması və bu imtiyazların ermənilərə verilməsi tələb olunurdu. II Əbdülhəmid bu imtiyazlara qarşı çıxdı. O, islahatın bütün əhaliyə şamil edilməsini istədi. Halbuki, hələ 1914-cü ilə olan məlumata görə bu vilayətdə 446.379 türk, 971 yunan və cəmi 79.821 erməni yaşayırdı. Hökumətin bu məsələdəki sərt mövqeyini görən İngiltərə Rusiyadan Osmanlı dövlətinə təzyiqləri artırmasını istədi. Lakin İngiltərə bu məsələdə nə Rusiyadan, nə də Fransadan gözlədiyi köməyi ala bilmədi.

Sasun üsyanının hökumət üzərində Avropanın faktiki bir müdaxiləsinə səbəb olmamasına görə ermənilər 1895-ci ildə xüsusilə də, Hnçak partiyasının qızışdırıcılıq fəaliyyəti nəticəsində İstanbul, Trabzon, Egin, Dəvəli, Ağhisar, Ərzincan, Malatya, Harput, Sivas, Urfa, Gümüşxanə, Bitlis, Merzifon, Maraş Muş, Kayseri, Yozqat və Zeytunda qarışıqlıqlar yaratdılar **[2.səh. 149**]. Ermənilərin bu üsyan və qırğınları törətməkdə nə məqsəd güddüklərini İstanbulda Robert kollecinin rəisi olan missioner Hamlin belə şərh etmişdi: "Ağıllı bir erməninin mənə dediyinə görə , Hnçak müsəlmanları qətl edəcək, müsəlmanlar buna qarşılıq verəcək, Rusiya insanlıq naminə erməniləri qurtarmağa gələcək" **[7. səh.171]**. Qeyd etmək lazımdır ki, bu hadisələrdə türklərlə yanaşı onlara qoşulmayan ermənilərə qarşı da cinayətlər törətmişdilər. Erməni qiyamları yatırıldıqda missionerlər Avropa və Amerikaya öldürülən ermənilərin sayı ilə bağlı uydurma məlumatlar göndərirdilər. Bu məlumatlar mətbuatda müzakirə edilir, iftiralar ataraq Qərb cəmiyyətində Osmanlıya qarşı nifrət hissi yaradırdılar.

İstanbul hadisələri İngiltərə başda olmaqla Avropa dövlətlərini hərəkətə gətirdi. Bu dövlətlərin təzyiqi ilə hökumət 20 oktyabr 1895-ci ildə İslahat Nizamnaməsini elan etdi. Lakin II Əbdülhəmid bu Nizamnamənin qəbul edilməsinin müsəlman əhali üçün təhqir hesab olunacağı və ölkəni parçalayacağı düşüncəsi ilə qəbul etmədi.

Xarici dövlətlərin bu məsələyə diqqətini artırmaq məqsədilə Vanda fəaliyyət göstərən Daşnaksütyun, Hnçak, Ramqavar, Serakan, Karsakan partiyaları 1896-cı ildə üsyan qaldırdılar. Bu partiyalar ermənilərə təlim keçir və onları silahlandırırdı. Hələ 21 fevral 1909-cu ildə Rusiya səfiri Zinovyev tərəfindən ölkəsinə göndərdiyi məlumatda qeyd edirdi ki, " Vanda 2 müsəlman və 1 erməni millət vəkili seçilmişdi. Müsəlmanların xristianlara qarşı düşmənçiliyi yoxdu. Türklər, özəlliklə zabitlər ermənilərlə dostluq münasibətləri qurmağa çalışırlar. Lakin ermənilər komitəçi ermənilər tərəfindən qızışdırılaraq Türkiyəyə yaxınlaşmırlar". 418 müsəlman və 1715 ermənin öldüyü üsyanın ardından 26 avqust 1896-cı ildə Daşnak komitələrinin İstanbulda Osmanlı Bankına basqınları baş verdi **[12.səh.36]**. Van üsyanı və Osmanlı Bankına basqınlar İngiltərəyə gözlədiyi fürsəti verdi. İngiltərə bir tərəfdən II Əbdülhəmidi islahat keçirməyə məcbur etdiyi halda, digər tərəfdən onu taxtdan salmağa çalışırdı. Rusiya isə hökuməti islahat keçirməyə məcbur etməyə tərəfdar olduğu halda taxt dəyişikliyinə qarşı çıxdı. İngiltərənin hökumətə verdiyi 20 oktyabr 1896-cı il tarixli notanı İtaliya və Avstriya müdafiə etdiyi halda Fransa müdafiə etmədi. Bu ziddiyyətlər qarşısında noyabr ayında II Əbdülhəmid islahatın 6 vilayətdə deyil, bütün vilayətlərdə həyata keçirilməsi üçün məsələ qoydu və dekabr ayında ermənilər üçün bir əvf fərmanı qəbul etdi.

Bu zaman, yəni 1896-cı ildə Giritdə bir üsyanın və bir il sonra da Yunanıstanla müharibənin başlanmasının ardından baş verən Makedoniya hadisələri erməni məsələsini ikinci plana keçirdi. Avropa dövlətlərinin erməniləri qızışdıraraq türklərə qarşı qaldırmaları barədə kifayət qədər faktlar mövcuddur. Məsələn, 1898-ci ildə İsveçrədə toplanan bir konqresdə "Fələstində bir yurd

qurma" barədə alınan qərara əsasən konqresin nümayəndəsi Teodor Herzl İstanbula gələrək sultan Əbdülhəmidlə görüşür. İngilislərin Fələstində yerləşmələri müqabilində  belə bir təklif irəli sürür: "Bütün borclarınızı ödəyək, erməniləri durduraq, Avropa cəmiyyətində sizə qarşı hüsn-rəğbət yaradaq". Təəsüf ki,ermənilərin mənfur və riyakar planları getdikcə daha da şiddətlənirdi.Artıq XIX əsrin sonları XX əsrin əvvəllərində bu “PLANLAR” üçün real şərat yaranırdı. Bu haqda elmi məqalə ( 2-də) bəhs olunacaq.

## ƏDƏBİYYAT


1. Abdurrahman Şeref Efendi. Tarih musahabeleri. Sadeleştiren Enver Koray. Ankara 1985,  351 səh.
2. Esat Uras. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul 1976,  379  səh.
3. Kamal Beydilli. 1828-29-cu illər Osmanlı Rus savaşında Doğu Anadoludan Rusiyaya köçürülən ermeniler. Belgeler neşriyyatı 17, 1988-ci il,  578 səh.
4. Metin Aydoğan. Türk uyqarlığı. İstanbul, 2006,  338 səh.
5. Midhət Sərtoğlu, Türkiyədə erməni məsələsi. Belgelerle türk tarihi dergisi neşriyyatı, İstanbul, 1968-ci il,  297 səh.
6. Osmanlı devleti tarihi. I cild,  İstanbul 1999.  371 səh.
7. Recep Şükrü Apuhan. Türklerin tarihi. Göktürklerden Türkiye Cumhuriyetine 2500 yıllık savaş. İstanbul, 2008, 288 səh.
8. Siyasi tarix, I hissə, Bakı, 1997, 194 səh.
9. Türk-ermeni ilişkileri. 21. yüzyıla girerken tarihe dostça bakış. Ankara 2000, 315 səh.
10. Türkiye tarihi 3cilt, Osmanlı devleti 1600-1908.İstanbul 2000,  479 səh.
11. V.L.Veliçko. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı, 1995, 192 səh.
12. Yusuf Halaçoğlu. Ermeni tehciri. 9. baskı, İstanbul, 2006,  192 səh.


## РЕЗЮМЕ

**ИБРАГИМ КАЗЫМБЕЙЛИ**

## АРМЯНСКИЕ БЕСПОРЯДКИ НА ТЕРРИТОРИИ ОСМАНСКОЙ ТУРЦИИ В НАЧАЛЕ XIX ВЕКА

С начала XIX-го века христианские государства использовали частичное ослабление Османского государства, пытаясь укрепить свои позиции в этих регионах. А великие державы Запада подняв армян против Османской государства пытались реализовать свою "восточную политику" для своего блага.

К началу турецкого правления в Анатолии армяне свободно владели своим языком. Следует отметить тот факт, что еще в 1517 году Османское государство разрешило открытие армянской типографии.

Все исторические источники, даже армянские, показывают, что до русско-турецкой войны 1877-1878 годов армяне имели ряд привилегий и независимость как община. После войны некоторые западные государства, используя поражение Османской империи, усилили свои атаки и начали использовать «армянскую карту».

Западные государства не могли принять стратегическое положение России на этих территориях. И Россия, и Запад были заинтересованы в разделении Турции. Воспользовавшись этой ситуацией, армяне хотели создать автономию и государство в Восточной Анатолии. Когда эта жестокая идея не состоялась, начались беспорядки, террор и грабежи.

Все вышеуказанные вопросы широко обсуждаются в статье.

**Ключевые слова**: государство, беспорядок, век, политика, террор, восстание.

## SUMMARY

**IBRAHIM KAZIMBEYLI**

**ARMENIAN RIOTS ON THE TERRITORY OF OTTOMAN TURKEY IN THE 20$^{TH}$ CENTURY**

Beginning with the early XIX century Christian forces were trying to strengthen their positions on the Ottoman territory abusing its weakening. The great western states by making Armenians riot against Ottoman state were attempting to favor from the situation in solving of their own “western policy”.

By establishing Turkish authority in Anatolia, Armenians were freely using their native language. It must be noticed that the Ottoman state allowed opening Armenian publishing house in 1517.

In all historical sources, including Armenian sources themselves, enjoying a number of privileges and independence by Armenians as a community before Ottoman-Russia war in 1877-1878 in governing a state is described. After that war abusing the defeat of the Ottoman state the pressure of Western states increased, and they began to use “Armenian card”.

Western states could not recognize obtaining favorable strategic position by Russia on those territories. In breaking Turkey up both Russia and Western states were interested. Armenians wanted to establish their own sovereignty and state on the Western Anatolia territory favoring form the situation. When their bewildered idea didn’t come true, they resorted to riots, terror and robbery/vandalism. All of these matters were thoroughly analyzed in the article.

**Key words:** state, riot, century, policy, terrorism, rebellion.

*(Akademik Hacı Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*